

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 114 (23.526)

*17 iyul 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək Ceyhun Bayramova deyib: – Bu gün mən sizi Xarici İşlər naziri vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız. Bu sahə sizin üçün yeni olsa da, idarəetmə təcrübəniz kifayət qədər böyükdür, müxtəlif vəzifələrdə işləmisiniz, o cümlədən nazir vəzifəsində. İdarəetmədə əldə etdiyiniz təcrübə qısa müddət ərzində özünü göstərəcək, Azərbaycanın xarici siyasəti ölkəmizin maraqlarını tam təmin etmək üçün öz sözünü deyəcək. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Xarici İşlər naziri Ceyhun Bayramov Prezidentə bu yüksək etimada görə dərin minnətdarlığını bildirib.

* * *

İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yeni tikilən "Böyükşor" yarımstansiyasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım yarımstansiya ilə tanış olublar, Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.



## Nazirlər Kabinetinin elektron saytı yenilənib



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin *nazirlerkabineti.nmr.az* yenilənmiş saytı iyul ayının 16-da istifadəyə verilib. Sayt ümumi dizaynı, məzmunu, istifadəçi rahatlığı, texniki imkanları baxımından müasir standartlara tam cavab verir. Onun strukturu təkmilləşdirilib, yeni bölmələr əlavə edilib və ən son internet texnologiyaları əsasında yeni dizayn verilib.

Müasir dizaynda yaradılan 7 bölmə və 4 altbölmədən ibarət olan saytda muxtar respublikanın rəsmi xəbərlərini, Nazirlər Kabinetinin fəaliyyəti ilə bağlı məlumatları əldə etmək olar. "Əsas səhifə"də muxtar respublikada baş verən ictimai, siyasi xəbərlər və Nazirlər Kabinetinin fəaliyyət istiqamətinə uyğun olaraq məlumatlar yerləşdirilib. İstifadəçilərin rahatlığını təmin etmək məqsədilə "Axtar" guşəsi yaradılıb. Bundan başqa, aktuallıq və istifadəçi tələbatı nəzərə alınaraq səhifədə "Heydər Əliyev Fondu", "Azərbaycan Respublikasının Prezidenti", "Naxçıvan Muxtar Respublikası Ali Məclisi", "Azərbaycan Respublikası Nazirlər Kabineti" və "Naxçıvan Muxtar Respublikası" saytlarına keçid linkləri də qoyulub.

4 altbölmədən ibarət olan saytın "Sənədlər" bölməsində Nazirlər Kabineti tərəfindən 2008-2020-ci illərdə qəbul olunmuş qərar və sərəncamlar öz əksini tapıb. "Nazirlər Kabineti" bölməsində Rəhbərlik, Səlahiyyətləri, İş qaydası, Nazirlər Kabinetinin aparatı haqqında əsasnamə, Nazirlər Kabineti aparatının strukturu və statusu yerləşdirilib. "Mətbuat xidməti" bölməsində rəsmi tədbirlər, məlumatlar, fotoqalereya, videoqalereya yarımbölmələri ilə tanış olmaq olar. Burada fotoqalereya və videoqalereya yarımbölmələrində Naxçıvan şəhərinin və muxtar respublikanın bölgələri haqqında foto və videoçarxlar yerləşdirilib.

Yenilənmiş internet saytı Nazirlər Kabinetinin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin, bu sahədə olan yeniliklərin, həyata keçirilən tədbirlərin dolğun və operativ şəkildə işıqlandırılmasına şərait yaradacaq, ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

*Son illərdə muxtar respublikada yaradılmış əlverişli biznes və investisiya mühiti iqtisadi fəallığın artmasına, investisiya qoyuluşunun çoxalmasına səbəb olub. Təbii ki, bütün bu uğurların əldə edilməsində müvafiq dövlət dəstəyi mexanizmləri əhəmiyyətli rol oynayır.*

## Muxtar respublika nümayəndələri beynəlxalq onlayn konfransda iştirak edib

"İxrac ili"ndə İqtisadiyyat Nazirliyi tərəfindən yerli sahibkarların istehsal etdiyi məhsulların ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində, iş adamlarının ixracla bağlı biliklərinin artırılmasında sahibkarlara yaxından dəstək göstərilir.

Beynəlxalq tədbirlərdə iştirak iş adamları arasında ünsiyyətin qurulması və əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli, yeni tərəfdaşların tapılması, yerli məhsulların təbliği və təşviqi baxımından faydalıdır.

Bu tədbirlərin davamı olaraq 16 iyul 2020-ci il tarixdə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının (DEİK) təşkilatçılığı ilə Türkiyə və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafı ilə bağlı onlayn konfrans keçirilib.

Konfransın əsas mövzusu iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf perspektivləri, hazırkı pandemiya ilə əlaqədar yaranmış vəziyyətdə hər iki ölkənin hökumətləri tərəfindən sahibkarlıq sahəsində görülmüş işlər və karantin rejimindən sonra sahibkarlığın dəstəklənməsi istiqamətində nəzərdə tutulan tədbirlər olub. Mövzular ətrafında geniş çıxışlar edilib. Həmçinin konfransda muxtar respublikadan İqtisadiyyat Nazirliyinin İnvestisiyaların təşviqi və ixraca dəstək şöbəsinin müdiri və 3 sahibkarlıq subyektinin nümayəndələri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Orxan Abdinovun Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasına tətbiq etdiyi güzəştli ticarət rejimi, eləcə də muxtar respublikada istehsal olunan məhsulların Türkiyə bazarlarına ixrac imkanları haqqında çıxış edib, mövzu ətrafında geniş müzakirələr aparılıb. Konfrans sənaye, qida sənayesi və kənd təsərrüfatı, nəqliyyat və loqistika sessiyaları ilə davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



## Ətraf mühitin mühafizəsi üzrə ardıcıl tədbirlər həyata keçirilir

***Muxtar respublikada həyata keçirilən ekoloji siyasətin əsas məqsədi bugünkü və gələcək nəsillərin sağlam mühitdə yaşaması, təbii ehtiyatlardan səmərəli istifadə edilməklə iqtisadi potensialın qorunması və davamlı inkişafın təmin edilməsidir.***

Son dövrlər bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmiş, təbii iqlim xüsusiyyətləri və relyef nəzərə alınaraq meşələrin, yaşıllıqların qorunması və artırılması diqqətdə saxlanılmışdır.

Muxtar respublikada ətraf mühitin mühafizəsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, ərazisi 3139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə muxtar respublikanın hüdudlarında Araz çayı boyunca ərazisi 9118 hektar olan "Arazboyu" Dövlət Təbiət Yasaqlığının və 2009-cu il 22 iyun tarixli Fərmanı ilə Şərur, Babək, Kəngərli və Şahbuz rayonlarının ərazisində 68 min 911 hektar sahədə "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması flora və fauna ehtiyatlarının qorunmasında, bərpasında mühüm mərhələ təşkil etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub saxlanılmasına, artırılmasına və mühafizəsinə təminat yaratmışdır.

Muxtar respublikada damcı üsulu ilə suvarma suyundan geniş istifadə ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlərin effektivliyini daha da artırmış, təkcə 2004-2013-cü illər ərzində 8480 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 5 milyon 512 mindən çox ağac və gül kolu əkilmişdir. Yaşıllaşdırma tədbirlərinin, əsasən, kənd təsərrüfatı əkinləri üçün yararsız ərazilərdə aparılması torpaqların münbitliyinin bərpa olunmasına yeni imkanlar yaratmışdır.

Muxtar respublikada ekoloji mühitin yaxşılaşdırılması tədbirləri istiqamətində 2014-2018-ci illər ərzində 2 milyon 400 min ədəd ting yetişdirilmiş, 38,5 ton toxum tədarük edilmişdir. Meşə fonduna daxil olmayan ərazilərdə 1 milyon 360 min 750, o cümlədən magistral avtomobil yollarının kənarında 118 min 500 ağac və kol cinsləri əkilmişdir. Ümumilikdə, bu dövr ərzində 2 min 710 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilmiş, 3 milyon 465 min 750 ağac əkilmişdir. Bundan əlavə, 2014-2018-ci illər ərzində yetişdirilmiş və su hövzələrinə buraxılmış balıq körpələrinin sayı 4 milyon 827 min ədəd təşkil etmişdir.

Babək rayonunda Naxçıvan Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleks və "İqlim otağı", ətraf mühitin mühafizəsi məqsədilə Sədərək rayonunda Su Monitorinq Laboratoriyası yaradılmışdır.

2019-cu ildə və cari ilin ilk yarım ilində meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması məqsədilə 865,2 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 530 mindən çox ağac və gül kolu əkilmişdir.

Son dövrlər geniş vüsət almış meliorasiya, irriqasiya tədbirləri, içməli su təminatı, kommunal xidmətlər və kanalizasiya ilə təchizat sahəsində görülən işlər cəmiyyət həyatının etibarlı ərzaqla təminatına və sağlamlığına, ətraf mühitin mühafizəsinə mühüm töhfə olmuşdur.

Muxtar respublikada alternativ və bərpa olunan enerji növlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər enerji təhlükəsizliyimizin təmin olunması ilə yanaşı, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına da müsbət təsir göstərib.

Muxtar respublikada ekologiya sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2020-ci il 17 aprel tarixdə Fərman imzalanmışdır.

Sağlam ekoloji mühitin yaradılması istiqamətində görülən işlərin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Təbiətin mühafizəsi, ekologiyanın qorunması və yaşıllıqların artırılması ümumxalq işidir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlardan ibarətdir. Ona görə də yaşıllıqların və meşə fondlarının mühafizəsinə diqqət artırılmalı, ekoloji tarazlığın qorunması ilə bağlı monitorinqlər davam etdirilməlidir".***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Şahbuz dağlarında otun biçilən vaxtıdır



***Hələ qarlı qışa çox qalır. İndi Naxçıvanın dağlıq bölgələrində ot tədarükünün əsl vaxtı çatıb. Qışın bəzən 5 aydan da artıq davam etdiyi Şahbuzun Kükü, Güney Qışlaq, Biçənək, Ağbulaq, Gömür və digər dağ kəndlərinə bu günlərdə yolu düşən arandakı taxıl biçini qədər insanların ot biçininə də səfərbər olduğunu görər. Keçmişdən bu günə dağ otlarını tədarük etməkdə böyük təcrübə toplamış yerli əhali üçün ot biçini həm də həyat tərzinin bir parçası, nəsildən-nəslə ötürülən bir əmək vərdişidir.***

Şahbuzun dağ kəndlərində yaşayan torpaq mülkiyyətçiləri üçün ot biçini hazırda 10-15 günlük qısa bir kampaniya olsa da, yaxın keçmişdə bu əziyyətli iş bəzən 2 ayadək davam edib. Orta və yaşlı nəslin yaxşı yadındadır ki, əsasən, əl əməyinə əsaslanan həmin dövrdə, bəzən ailəlikcə ot biçininə çıxılar, hətta şəhərdən yaxınları da köməyə gələrdilər. Bu da təsadüfi deyildi. Axı elə ki yay girdi, al-bənövşəyi səhləblər saraldı, qantəpər, qara yarpız da çiçəklədisə, deməli, otun da biçilmə vaxtı gəlmişdir. Bir günü də boş itirmək olmaz. Hələ arada builki kimi gecikmiş yay yağışları da yağardısa, işlər bir az da yubanacaqdı. Otun tamamilə əllə biçildiyi, kəndliyə çatan torpaqların da, əsasən, yal-yamac olduğu bir dövrdə bu həyəcan da təbii idi. Oturub gözləmirdilər. İndiki gənclərin əksəriyyəti kərəntinin nə olduğunu bilməsələr də, 20-30 il bundan qabaqkı balaca uşaqlar da oraq, kərənti, çəkic, zindan, xart, qavara, yaba, dırmıq, lay, xotma, xorum, haça ağacı, bağ, bəndəm kimi ot biçinində hər gün işlədilən kəlmələri vurma cədvəli kimi əzbər bilirdilər. Ot biçininə, əsasən, kiçik dəstələr halında çıxan kəndlilər üçün



səhərin sübhündən axşamın alaqaranlığınadək çəkilən bu zəhmətli iş bir çox hallarda əsl sosial dəstək nümunəsi idi. Vacib işi çıxan, yaxud xəstəxanaya getməli olan dəstə üzvləri bir-birinə əvəzsiz olaraq kömək edər, son məhsulu da halallıqla bölərdilər. Həm də püşklə! Biçin başlayandan keçən həftələr boyunca əməlli-başlı bir-birinə qaynayıb-qovuşan o insanlar üçün ağır iş öz yerini vaxtaşırı olaraq təşkil olunan kabablı-məzəli çöl qonaqlıqlarına da verərdi. İri yemişan kolunun, yaxud bulaq başındakı söyüd ağacının altında böyük bir ailə kimi nahar yeməyinə toplanmış köhnə biçinçilər yağlı oğlaq kababından nuş edib, yarpızlı, kəklikotulu ocaq çayından da içəndən sonra yenidən işə başlayardılar. Mobil telefonun olmadığı həmin zamanlarda hər səhər uzaqdan-uzağa bir-birini haraylayıb uğurlu iş avadanlığı arzulayan insanların səmimi salamları, nisbətən yaşlı biçinçilərin nağıl etdiyi köhnə xatirələri, bəlkə də, qaraçıraq zamanında yaşamış insanlardan yaşadılıb gələn və hər gün təkrar edilən bir atalar sözü dəyərindəki ibrətamiz kəlmələri, baməzə adamların şux zarafatları, işə ayaq çatdırmayan tənbəl gənclərin bir-birinə qarışan qəhqəhələri və bir çoxlarının, hətta Bakıya göndərmək üçün topladığı nəfis ətirli dərman otları dəstələri o dövrdə ot biçininə qatılanların yaxşı xatırladığı təəssüratlardandır. Sıldırım yamaclardan üzüaşağı çəkilmiş bir neçə min metr uzunluqdakı kanat məftillərlə ot bağlarının ildırım sürətilə sürüşdürülərək düz yerlərə endirilməsi isə o dövrün əsl yeniliyi idi. Xülasə, ot biçini zamanı hər işi qol gücünə görsə də, 80-90-ların kənd sakinləri, son nəticədə, evindəki kiçiktutumlu "Orsk" soyuducusunda ilboyu təzə ət və ağartı məhsullarının olacağından əmin idi.





Artıq zəmanə dəyişilmiş, iqtisadi və sosial həyatın bütün sahələrində olduğu kimi, ot biçinində də yeniliklər, yeni texniki avadanlıq və maşınlar öz sözünü deməkdədir. Əgər əvvəlcə ot biçininə qatılan hər ailə öz yardımçı təsərrüfatının ehtiyacı üçün verilən ərazilərlə kifayətlənirdisə, hazırda ən yaxşı suvarılan, münbit torpaqlar Şahbuz kəndlisinin ixtiyarındadır. Başqa sözlə, Naxçıvanda zamanında aparılmış torpaq islahatı, torpaqların kəndliyə verilməsi öz sözünü deyib, kəndli torpağının əsl sahibi olub. Bu isə kəndlərdə iri ailə təsərrüfatlarının yaranmasına, onların fərdi təsərrüfatlardan istehsalçıya çevrilməsinə, bazarın bol heyvandarlıq məhsulları ilə dolub-daşmasına səbəb olub. Muxtar respublikamızda daxili bazarın yerli məhsullarla təmini istiqamətində aparılan işlər, dövlətin kəndliyə kredit dəstəyi, lizinq yolu ilə ən müxtəlif yeni kənd təsərrüfatı texnikalarının satışı torpaq mülkiyyətçilərinin də işini asanlaşdırıb. Artıq keçmişdə 10 nəfərin bir həftədə gördüyü işi indiki otbiçənlərlə bir gündə görmək olur. Belə otbiçən texnikanın sayı isə təkcə Kükü kəndində xeyli çoxalıb, demək olar ki, hər bir iri təsərrüfatçıda vardır. Qiyməti münasib, iş məhsuldarlığı da kifayət qədər yüksək olan yeni texnika ilə işləyən kəndlilər bu dəfə Dib Yurddan Təhnəliyədək bütün ərazinin otunu bir-iki həftəyə biçib qurtarır, qışa tədarük edirlər. Beləcə, ilboyu Gurbulağın gur suyundan, Dərələyəzin güney yamaclarına yağan yağmurdan doyunca içib, Şahbuz dağlarının boy atmış yamyaşıl, çiçəkli otlarından bəslənən quzuların ətindən hər kəs dadacaq.

✍ **Əli CABBAROV**

***Muxtar respublikamız əlverişli iqlim şəraitinə mənsub olduğu üçün bitki örtüyü də zəngindir. Belə ki, ana yurdumuzda min bir dərdə dərman olan minlərlə bitki həm mədəni, həm də yabanı halda yetişir. Belə giləmeyvələrdən biri də qarağatdır. Bu barədə yazı hazırlamaq üçün ilk olaraq qarağatın faydaları ilə maraqlandıq. Öyrəndik ki, bu giləmeyvə insan orqanizmi üçün çox faydalıdır. Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi Leyla Bağırovadan aldığımız məlumata görə, bir çox növləri ilə tanınan bu giləmeyvənin qara rəngdə olanı daha çox zəngin kimyəvi tərkibə malikdir. Qara qarağat, xüsusilə C vitamini ilə zəngindir. Bu səbəbdən giləmeyvə çox gözəl antioksidant sayılır. Orqanizmdə gedən qocalma proseslərini ləngidir, onu bərpa edir, orqanizmə xarici mühitdən düşən zəhərlər, toksinlər və sərbəst radikallarla mübarizə aparır. Qara qarağat insanın immun sisteminə çox müsbət təsir edir. Uşaqlar, yaşlılar, müxtəlif xəstəliklər nəticəsində immuniteti zəifləmiş insanlar üçün bu giləmeyvə olduqca xeyirlidir.***

# Əlverişli təbii şərait giləmeyvə təsərrüfatçılığı ilə də məşğul olmağa imkan verir

Həkim onu da deyir ki, qara qarağatın tərkibində B qrupu vitaminləri, K vitamini, fol turşusu və pantoten turşusu da var və dəmirlə zəngindir. Bu, onun anemiyadan əziyyət çəkən insanların müalicəsi üçün qiymətli bitki olduğunu təsdiq edir. Bundan əlavə, bu giləmeyvə kalium elementi ilə də çox zəngindir. Kalium orqanizmi artıq mayedən və duzlardan azad edir və bunun nəticəsində ürək-damar və böyrək xəstəlikləri olan insanların vəziyyətini yaxşılaşdırır. Aterosklerozun müalicəsi və profilaktikası üçün qara qarağat çox xeyirlidir. Qarağat iştahanı artırır, mübadilə proseslərini yaxşılaşdırır, qanda şəkərin səviyyəsini aşağı salır. Bu giləmeyvə azkalorilidir və bu səbəbdən arıqlamaq məqsədilə tutulan pəhrizlər zamanı uğurla istifadə oluna bilər.

Həkimin sözlərinə görə, qara qarağat iltihab və revmatizm əleyhinə antiseptik xüsusiyyətlərinə malikdir. Kapilyar damarlar üçün də çox xeyirlidir – onları təmizləyir, elastikliyini artırır. Bronxit zamanı qara qarağatın şirəsi çox yaxşı bəlğəmgətirici və iltihab əleyhinə təsir edir. Onun yarpaqları da çox xeyirlidir və bu səbəbdən həkim-fitoterapevtlər (bitkilərlə müalicə edən həkimlər) onları müxtəlif müalicəvi ot yığımlarına əlavə edirlər. Profilaktik məqsədlə qara qarağatın yarpaqlarını çay dəmlədikdə əlavə etmək olar. Qırmızı qarağatın tərkibində də xeyirli vitaminlər və mikroelementlər var. Bu qarağatın tərkibində C vitamini daha az, yod daha çoxdur.

Həkimin məsləhətini dinlədikdən sonra bu giləmeyvəni əkib-becərən Rəhim Ələkbərovla tanış olmaq



üçün üz tuturuq Şahbuz rayonunun Nursu kəndinə. Yaşı altmışı haqlayan Rəhim dayı uzun illərdir ki, qarağat əkini ilə məşğul olur. O deyir ki, qarağat, adətən, mədəni halda insanlar tərəfindən həyətyanı sahələrdə yetişdirilsə də, onun heç bir qulluq tələb etmədən yabanı halda bitən növləri də var.

Qarağat kolunun hündürlüyü birdən beş metrə qədər ola bilir. Bağlarda mədəni şəkildə əkilən növləri, adətən, 1,5-2 metrdən çox olmur. Bitki uzun, düz tumurcuqlara, qəhvəyi, qırmızı və ya boz rəngə malikdir. Kök sistemi güclüdür, 1,5 metr dərinə gedə bilir. Qarağat, adətən, aprel və ya may aylarında, bəzi növləri isə iyun ayına qədər çiçək açır.

Əkin qaydasına gəldikdə isə payızın əvvəlində əkmək məsləhətdir. Payız aylarında əkilən kol bahara qədər yaxşıca kök ata bilir. Bu giləmeyvəni əkərkən əkinçilər hava şəraitinə də diqqət etməlidirlər. Əgər hava mülayim keçirsə, kolu sentyabr, hətta oktyabr aylarında əkmək olar. Yox, əgər hava soyuq keçirsə, yaza qədər gözləmək daha yaxşıdır. Qarağat, adətən, Günəş işığının daha çox düşdüyü və daim nəm alacağı yerdə əkilməlidir. Çünki bu bitki kölgəni sevmir və inkişafı üçün kifayət qədər rütubətli yerlərə meyil edir. Bitkinin digər növləri bir müddət az rütubətliliyə dözə bilsələr də, qara qarağat quraqlığa dözmür. Kolların kiçik bir tacı varsa, onları bir-birinə daha yaxın əkə bilərsiniz. Lakin fidan yaymaq və qarağat bağı salmaq istəyirsinizsə, kollar arasında orta hesabla 1,5-2 metr məsafə olmalıdır.



Əgər əkin qaydaları düzgün aparılarsa, yaxşı qayğı göstərilərsə, bitki, təxminən, 15 il bol məhsul verəcək. Söhbətimizin bu yerində evin xanımı Kamilə xala da bizə qoşulur. O deyir ki, ay qızım, qarağat çox faydalı bitkidir. Biz əldə etdiyimiz məhsulu təkcə bazarlara çıxarmırıq. Onun mürəbbəsini, kompotunu, şəkərləməsini də hazırlayırıq. Qarağatın yaxşı mürəbbəsi olur ki, bütün qışboyu can dərmanı kimi istifadə edilir, deyən Kamilə xala mürəbbənin hazırlanma qaydasını da bizimlə bölüşür: əvvəlcə qarağatı saplaqlardan təmizləyib yuyuram. Mən, adətən, giləmeyvəni süzgəcin içində yuyuram. Süzgəci tez-tez silkələyirəm. Qazana, ya da teştə giləmeyvənin yarısını töküb üstünə şəkər əlavə edir, sonra qalan giləmeyvəni tökürəm.

Vaxtaşırı qazanı silkələyirəm ki, şəkər bərabər paylansın. Bir neçə saat saxlayıram. Əgər hava istidirsə, onda soyuq yerdə (soyuducuda) saxlamaq lazımdır. Əks halda giləmeyvə turşuyar. Az su əlavə edib qazanı (teşti) zəif odun üstünə qoyuram ki, şəkər ərisin. 5-7 dəqiqə odun üstündə saxlayıram, qaynara düşəndə odu söndürüb, mürəbbəni soyuduram. Sonra yenidən 5 dəqiqə qaynadıram. Hazır olduqdan sonra şüşə balonlara yığıb qışa saxlayıram.

Onu da qeyd edim ki, bu ailə təkcə qarağat əkini ilə kifayətlənmir. Ömrünü-gününü torpağa bağlayan Rəhim kişi bağ-bostan əkini ilə yanaşı, arıçılıq və heyvandarlıqla da məşğuldur. Söhbətimiz zamanı tez-tez "Tək əldən səs çıxmaz", – deyən bu zəhmətkeş ailə başçısına gördüyü işlərdə oğlu, gəlini və nəvələri də yaxından kömək edirlər. Biz də ailəyə işlərində uğurlar arzulayıb onlardan ayrılırıq.

✍ **Telli MƏMMƏDOVA**

# Vergilərin və sığorta haqlarının vaxtında büdcəyə köçürülməsi təmin olunub



Muxtar respublikada vergi ödənişlərinin və sığorta haqlarının vaxtında və tam şəkildə büdcəyə ödənilməsi əhalinin rifah səviyyəsinin daha da yaxşılaşdırılmasına və iqtisadiyyatın davamlı inkişafına şərait yaradır. Vergi ödəyicilərinə maliyyə dəstəyinin göstərilməsi fonunda sahibkarlıq fəaliyyətinin daha da gücləndirilməsi və genişləndirilməsi istiqamətində işlər davam etdirilib, həmçinin ödəyicilər vergi və digər qanuni ödənişləri vaxtında büdcəyə köçürüb. Belə ki, cari ilin iyun ayında Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti üzrə müəyyənləşdirilmiş proqnoz 104,4 faiz icra olunub.

Vətəndaşların sosial təminatlardan yararlanması üçün ödənilməsi zəruri olan məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 108,7 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 104,2 faiz əməl edilib. İstər vergilər üzrə, istərsə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə proqnozlar bütün yerli vergi orqanları üzrə artıqlaması ilə icra edilib.

Muxtar respublikamızda iqtisadi potensialın səmərəli istifadəsini təmin etmək məqsədilə özəl sektora dövlət dəstəyinin gücləndirilməsi, xüsusilə rayonlarda mikrosahibkarlıq fəaliyyətinin genişlənməsi bu sahədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Dövlət Vergi Xidmətinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə iyun ayında 2 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına alınıb. Bundan əlavə, bəhs olunan dövrdə yerli vergi orqanları tərəfindən 263 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 79 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Yenilməzlik və əyilməzlik simvolu

***Millətini, yurdunu, elini, obasını sevən hər bir insan üçün ən müqəddəs yerdir Vətən. Babalarımızın əmanəti, doğulub-böyüdüyümüz Vətənimiz bizə anamız kimi doğma və əzizdir. Vətənə sevgi hissi insanı eli, obası, xalqı üçün yaşamağa sövq edir. Tarixin müxtəlif dövrlərində Vətənimin azadlığı, müstəqilliyi təhlükə altında qalıb, torpaqlarımız mübarizələr meydanına çevrilib. Belə çətin məqamlarda qəlbi Vətən eşqi ilə döyünən igid, cəsur oğullar meydana çıxıb, Vətənin azadlığı, zəhmətkeş xalqının rifahı naminə mübarizə aparıblar.***

Bu torpaq Babək, Cavanşir, Koroğlu, Qaçaq Nəbi kimi qəhrəmanlar, Mehdi Hüseynzadə, Gəray Əsədov, Qafur Məmmədov, Həzi Aslanov kimi zamanın ədalətsiz hökmünə baş əyməyən igid oğullar yetişdirib. Qədirbilən xalqımız öz qəhrəman və sərkərdələrini, mübariz övladlarını, sinəsini yadellilərin hücumlarına sipər edən oğullarını heç vaxt unutmur.

Bütün qəhrəmanlarımızın xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilir, yaşadılır ki, onların şücaəti, ağıl və idrakı, zəfər dolu qəhrəmanlığı xalq üçün, gələcək üçün örnəyə çevrilsin.

Azərbaycan tarixində izi olan, xalqımıza nümunə olan, adı ilə öyünülən xalq qəhrəmanlarımızdan biri də Babəkdir. Babək Xürrəmilər hərəkatının rəhbəri, Ərəb Xilafətinə qarşı Azərbaycandakı üsyana rəhbərlik etmiş böyük sərkərdədir.

Babəkin xatirəsi, adı bu gün də unudulmur. Xalqımızın qəhrəman oğlunun adı muxtar respublikamızın bir rayonunda və həmin rayonun mərkəzini təmsil edən şəhərdə əbədiləşdirilib. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, təşəbbüsü ilə Babək rayonuna Xalq qəhrəmanının adı verilib. Həmçinin Naxçıvan və Babək şəhərlərində xalq qəhrəmanına böyük abidə ucaldılıb. Naxçıvan şəhər dəmiryol vağzalının qarşısında, Əliqulu Qəmküsar küçəsində 1988-ci ildə ucaldılan abidənin müəllifi heykəltəraş, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərovdur. Abidənin yerləşdiyi ərazi Babək meydanı adlanır. Abidədə Xalq qəhrəmanı Babək atın belində bir əlində qılıncla, sanki düşmənlərə meydan oxuyur. "Naxçıvan" Universitetinin yaxınlığında yerləşən abidə muxtar respublikamıza gələn qonaqların




da diqqətini cəlb edir. Hər gün onun qarşısından keçən yüzlərlə insanın gözü önündə bu vətənpərvər Xalq qəhrəmanının şücaətləri canlanır. Bu abidənin varlığı həm də onu göstərir ki, xalqının azadlığı uğrunda mübarizə aparan qəhrəmanlar ölmür, onların xatirəsi yaşadılır.

Babək birdən-birə Xalq qəhrəmanı olmayıb... Ərdəbil şəhərinin Bilalabad kəndində anadan olan, gənc yaşlarından ağlı, fərasəti ilə insanları özünə heyran edən Həsən bir müddət sonra Xürrəmilərə başçılıq edir və özünə Babək adını götürür, 20 ildən çox ərəb zülmünə, xilafət qoşunlarına qarşı vuruşur və dünya tarixində böyük sərkərdə və qüdrətli hökmdar kimi tanınır. Xalq qəhrəmanı qətiyyətlə deyirdi: *"Qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq daha yaxşıdır!" "Azadlıq verilmir, alınır! Qan bahasına, qurban bahasına!"* və ya *"İnam və əqidə mənim üçün qumar daşı deyil. O, mənə ya ölüm deyir, ya da azadlıq!" "Azərbaycanı azad görməyincə qılıncımı qınına qoymayacağam!"* Haqq-ədalətin, kasıbların tərəfində olan, ədalətsizliyə dözməyən və ona qarşı vuruşan, əqidəsi yolunda qolları, başı kəsilən, bədəni şaqqalanan görkəmli sərkərdə müqəddəs amal uğrunda sonacan mübarizə apardı. Babəkin qəhrəmanlığı Azərbaycan xalqını müstəqilliyə, azadlığa çağıran, cəsarətli, qətiyyətli addımı gələcək üçün bir nümunə oldu.

...Burada bir haşiyə çıxmaq istəyirəm. Xəyalən özlərini dənizdən-dənizə torpaqların sahibi sayan ermənilər əsrlərboyu özləri üçün müəyyən yer seçmək və orada öz dövlətlərini yaratmaq üçün ağıla belə, gəlməyən hiylə və kələklərə əl atıblar. Babək və Xürrəmilər hərəkatı ilə bağlı tədqiqatlarda da öz əksini tapan bir məqam, xüsusilə diqqəti cəlb edir. Həmin mənbələrdə qeyd olunur ki, 837-ci ilin yayında Xürrəmilərin Bəzz qalası süqut etdikdən sonra Babək erməni əsilli Səhl ibn Sumbatın xəyanəti nəticəsində əsir götürülür. Babəkə yaxın olmuş, sonra isə xəyanət edərək satqın çıxmış erməni əsilli Səhl ibn Sumbat obrazı bizi təəccübləndirmir. Çünki tarixin müəyyən mərhələlərində onların torpaqlarımıza olan təcavüzünün, insanlarımıza qarşı etdikləri vəhşiliklərin şahidi olmuşuq və təəssüf ki, ölkəmizə qarşı bu qondarma siyasət hələ də davam edir. İyulun 12-də Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti təxribat Azərbaycana qarşı işğalçılıq siyasətinin ən amansız göstəricisi oldu. Lakin Babək kimi neçə-neçə cəsur oğullarımız düşmənin həmlələrini mərdliklə dəf edərkən öz canını Vətən yolunda fəda etməkdən çəkinmədi, şəhidlik kimi müqəddəs zirvəyə yüksəldi...

Babəkin Naxçıvan, eləcə də Babək şəhərində abidəsinin ucaldılması olduqca qürurverici hadisədir, tarixi şəxsiyyətə hörmətin əlamətidir, keçmişimizə olan münasibətdir, qəhrəmana göstərilən ehtiramın ifadəsidir. Qürurlu və əzəmətli abidə bizim yenilməzliyimizin, əyilməzliyimizin, mənfur yağı ilə döyüşümüzün, qəhrəmani müdrikliyimizin, cəngavər idrakımızın, inamımızın, azadlığımızın sönməz simvoludur.

*Müdriklər deyir ki, qədim tarixi köklərə malik olan xalqın qəhrəmanı yenilməz olur və əbədiyyətə qovuşur. Bu əbədiyyət məşəli heç vaxt sönmür. İdeyaları bu gün də yaşayan yenilməz qəhrəmanın adını daşıyan Babək şəhərində, eləcə də diyarımızda yaşayan, çalışan, oxuyan insanlar – Babəkin abidəsinin önündən keçənlər istər-istəməz Babək adıyla qürur duyur, onu xatırlayır və adını yaşadırlar...*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin "Yeni Dünya Nizamı və onun mahiyyəti" monoqrafiyasının onlayn təqdimatı keçirilib.***

# Onlayn kitab təqdimatı keçirilib



Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq son dövrlərdə "Yeni Dünya Nizamı" və onun mahiyyəti ilə bağlı məsələlərin geniş müzakirə olduğunu söyləyib. Bildirib ki, ictimaiyyətə təqdim olunan nəşrdə tədqiqat predmeti kimi seçilmiş mövzunun araşdırılması, müasir dünyamızda baş verən hadisələrin, problemlərin və geosiyasi oyunların anatomiyası verilib. Kitabda "Yeni Dünya Nizamı", onun mahiyyəti, böyük güclərin qlobal hegemoniya uğrunda apardıqları siyasətin məqsədi və başəriyyətə etdiyi vədlər, bu nizamda dünya dövlətlərinin yeri və sair məsələlər təhlil edilib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru Yusif Hüseynov, universitetin Beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov, politoloq, siyasi ekspert Nurlan Qələndərli və AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli çıxış edərək fundamental nəşrin müasir dövr üçün aktuallığından bəhs ediblər.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

# Standartlara uyğun fəaliyyət təşviq olunur



***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən iyun ayında məhsul nümunələrinin 81 halda, o cümlədən qida məhsullarının 78 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin edilmişdir.***

Muxtar respublikaya idxal edilən uşaq qidalarının laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəriciləri yoxlanmış, yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 91 qida istehsalı müəssisəsinə baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Eyni zamanda meyvə-tərəvəzlərdən hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə sertifikatlaşdırma prosedurları və monitorinqlər üzrə məhsulların 23 halda standartlara uyğunluğu yoxlanılmış və nöqsan aşkar olunmamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-cü il fevralın 21-də "Tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri" barədə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası istiqamətində muxtar respublikada istehsal olunan tikinti materiallarının 3 halda keyfiyyət göstəriciləri yoxlanılmış, nəticələrin standartların tələblərinə uyğunluğu müəyyən edilmiş və müvafiq məhsullar sertifikatlaşdırılmışdır. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində bal məhsullarının 1 halda laboratoriya analizləri aparılmış, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmişdir. "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində iyun ayında, ümumilikdə, 3 ailə təsərrüfatına istehsal etdikləri məhsulların etiketlərinin hazırlanmasında müvafiq köməkliklər göstərilmişdir. Ötən ay ev şəraitində araq istehsalı ilə məşğul olan 1 yeni ailə təsərrüfatında minifiltr qurğusu quraşdırılmış və müvafiq ailə təsərrüfatlarının sayı 32-yə çatdırılmışdır.

Alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 2 halda və pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir.

59 bərbərxanaya, 39 ət satışı mağazasına, 98 ictimai iaşə və xidmət sahəsinə, 148 ərzaq mağazasına və 10 topdansatış obyektinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Ümumilikdə, 30 təsərrüfat subyektində, o cümlədən 16 istehsal müəssisəsi, 6 ictimai iaşə və xidmət sahəsi, 1 ət satışı mağazası, 3 topdansatış obyekti və 4 bərbərxanada təmir işləri aparılmışdır. İyun ayında meteoroloji norma və qaydalara uyğun olaraq 318 ölçmə vasitəsi yoxlanılmışdır.

Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 6 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 4 müəssisədə istehsal olunan məhsulların etiketlərində orfoqrafik səhvlərin olduğu və standartların tələblərinin pozulduğu aşkarlanmış, çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təsərrüfat subyektləri məlumatlandırılmışdır. "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın müvafiq bəndlərinin icrası istiqamətində təsərrüfat subyektləri ilə 18 halda abonent müqaviləsi bağlanaraq istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsi üçün informativ xidmətlər haqqında məlumatlar müəssisə rəhbərlərinin diqqətinə çatdırılmışdır. Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilir. "Naxçıvan məhsulları" mağazalar şəbəkəsi vasitəsilə satılan məhsulların aylar üzrə uçotu aparılmaqdadır.

Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə 7 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 6 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir. Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

*Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının kollektivi oxucuları ilə budəfəki onlayn görüşündə Ernest Heminqueyin "Qoca və dəniz" əsərinin müzakirəsini keçirib.*

# Ernest Heminqueyin *"Qoca və dəniz"* əsərinin onlayn müzakirəsi aparılıb



Onlayn müzakirənin moderatoru, kitabxananın direktor müavini Kəmalə Ağayeva tədbiri açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilmiş kitabların böyüməkdə olan uşaq və yeniyetmələrin tərbiyəsində xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Kitabxanaçı Məsmə Cəfərova Ernest Heminqueyin həyat və yaradıcılığından danışaraq qeyd edib ki, XX əsrin görkəmli Amerika yazıçısı Ernest Heminquey öz bədii yaradıcılığı ilə Amerika ədəbiyyatının şöhrətini bütün dünyada təsdiqləDən böyük söz ustalarından biridir.

Kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri Nüşabə Seyidova "Qoca və dəniz" əsərində oxucuya ötürülən müsbət keyfiyyətlər" mövzusundakı çıxışında qeyd edib ki, Ernest Heminqueyin "Qoca və dəniz" povesti ömrünü balıq tutmaqla keçirən qoca Santyaqonun həyatından söhbət açır, onun öz balıqçı sənətini gənclərə öyrətməsindən bəhs edir. Qoca dənizçinin dənizi və oradakı balıqları necə sevdiyini, hətta balıqların aclıq məcburiyyətindən tora düşdüyünü bilsə də, özünün yaşaması üçün balığın ölməsinin vacib olduğunu gənc dostlarına həmişə danışmağı xoşlayardı. N.Seyidova "Qoca və dəniz" povestinin oxuculara, xüsusilə yeniyetmə və gənclərə təsiri haqqında fikirlərini bildirib, onların mübarizə ilə həyatda çox şeyə nail ola biləcəklərini vurğulayıb.

Sonda kitab haqqında geniş müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Ağac əkmək, yaşıllıq salmaq savab işdir

***İlahi qüdrətin bənzərsiz nişanəsi, şairlərin, yazıçıların ilham mənbəyi, sağlamlığımızın keşikçisi, yolyoldaşımız, sığınacaq yerimizdir ağaclar. Kölgəsi ruhumuzun dincliyi, yarpağı, çiçəyi, gövdəsi, qabığı dərdimizə məlhəmdir. Bağları, parkları, həyətləri bəzəyən, meyvəsi ilə ağzımıza dad, süfrəmizə bəzək gətirən, güclü küləklərin, qasırğaların qarşısında etibarlı sədd, örtük olandır ağaclar. Əbəs yerə deyil ki, Məhəmməd Peyğəmbərin (s.ə.s) hədislərindən birində deyilir ki, ömrünüzə bir gün qaldığını bilsəniz də, yenə ağac əkin, ən böyük savab ondadır. Beşikdən məzara qədər–hər vaxt köməyimizə yetəndir ağaclar...***



Ağac həyatın və əbədiyyətin simvolu kimi türk xalqlarının mifologiyasında, inanclarında mühüm yer tutur. Qədim əcdadlarımız hansısa ağacı kəsmək zərurəti qarşısında qalanda belə, əvvəlcə onun önündə diz çöküb, üzr istəyərdilər. "Kitabi-Dədə Qorqud" dastanından öyrəndiyimiz "Ağac əkmək savabdır" kəlamı bu gün də bir çoxumuzun əsas amalına çevrilib. Niyə də çevrilməsin? Ətrafımızda yaşıllığı ilə bizə həyat enerjisi verən, havanı digər zərərli qazlardan, mikroorqanizmlərdən təmizləyən ağaclar bizim yaşamağımızın, oksigenlə təmin olunmamızın əsas qarantıdır. Ona "həyat ağacı" kimi dəyər verilməsinin səbəbi də məhz ağacın insanlara saysız-hesabsız faydaları ilə əlaqədardır.

Bağ salmaq, ağac əkmək, ümumiyyətlə, ətrafı yaşıllıq aləminə qərq etmək ata-babalarımızın qədim adətlərindən olub. Ağac bolluq, şirinkamlıq, mehribançılıq nişanəsi hesab edilib. El içində yaşayış evinin ətrafında əkilən ağacın onun qayğısını çəkən ailəyə xeyir-bərəkət, xoş güzəran gətirəcəyinə inanılıb. Hədisi-şəriflərdən birində deyilir: *"Bir kimsə bir ağac əkərsə, ağac meyvə verənə qədər onu qoruyub qulluq edərsə, bu ağacdan tökülən hər meyvə Allah qatında o kimsə üçün bir sədəqə olar".*

İnsanlar aşayiş binaları tikərkən, yaxud məskən saldıqları yerdə, ilk növbədə, bu yerlərin yaşıllaşdırılması, ağaclarla əhatə edilməsi qayğısına qalırlar. Bir ağac əkməklə nəinki sağlamlığımızı qoruyur, həm də çayların, bulaqların qurumasının qarşısının alınmasına fayda veririk. Lakin onu kəsməklə təkcə həmin ağac deyil, eyni zamanda quşlar, həşəratlar, bir sözlə, canlı təbiət məhv edilir. Əsas vəzifəmiz ağac əkib yetişdirmək, onlara qayğı göstərmək, onları qorumaq olmalıdır. Ağac əkmək çox xeyirli bir iş olduğu kimi, eyni zamanda bir vətənsevərlik nümunəsidir. Hamımız Vətənimizə, torpağımıza bağlıyıq. Torpağın müqəddəsliyi insanın cövhərində, sanında, qanında, təmiz və pak hisslərində yaşayır. Təbiət də anamız, Vətənimiz, torpağımız qədər müqəddəsdir. Bir vaxtlar əksər kəndlərimizdə mavi yanacaq olmadığından, minlərlə qocaman ağac, yaş pöhrələr qırılır, təbiətə ziyan vurulurdu. Lakin son illər ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda təbiətə qayğı prioritet istiqamətlərdən biridir. Diyarımızda yaşıllıqların artırılması, yeni ağacların əkilməsi, mövcud yaşıllıqlara qulluq edilməsi sahəsində xeyli iş görülüb və bu işlər hazırda da davam etdirilir. Aparılan yaşıllaşdırma, meşə və bərpa işlərində insanlarımız birlik, bərabərlik nümayiş etdirir, könüllü gənclərimiz şəhərimizin yaşıllığı, gözəlliyi qayğısına qalırlar. Məhz bunun nəticəsidir ki, "Naxçıvan çox təmiz şəhərdir" sözlərini həm yerli, həm də xarici qonaqların dilindən tez-tez eşidirik. İndi şəhərimizdəki parklar, xiyabanlar, küçələr və ümumiyyətlə, hər bir yer zövq oxşayır, bu gözəlliklər gündəlik həyatımızda əhval-ruhiyyəmizin yüksək olmasına xeyli dərəcədə müsbət təsir göstərir.





Ağac əkmək dünyada yaxşı iz qoymaq, hər ağac isə bir insanın öz xatirəsini yaddaşlara həkk etməsidir. Bu xatirə milli dəyər nümunəsi kimi illər keçsə belə, anılır, yaddan çıxmır. Məlum həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi və iştirakı, eyni zamanda tapşırıq və tövsiyələri əsasında muxtar respublikada ağac əkini geniş vüsət alıb, hətta kənd təsərrüfatına azyararlı, qeyri-münbit torpaq sahələri belə, əkin dövriyyəsinə daxil edilib. Əgər 20 il bundan əvvəl muxtar respublika ərazisinin 0,6 faizi yaşıllıq idisə, indi bu rəqəm 20 faizə çatdırılıb. Diyarımızın bütün bölgələrində hər həftənin şənbə günü iməciliklər keçirilir, yeni meyvə bağları, meşə zolaqları salınır, təbiətin zənginləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Vaxtlı-vaxtında göstərilən aqrotexniki qulluğun nəticəsidir ki, ağaclar bol məhsul verir. Bu ilin ilk rübündə də meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində tədbirlər görülüb, 30,1 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 22 min ağac və gül kolu əkilib. Bütün bunlar ekologiyanın qorunmasına, gələcəyimizə qayğıdır.

Texnikanın günü-gündən inkişaf etdiyi müasir dövrdə ekoloji tarazlığın qorunub saxlanılmasına öz töhfəsini verən Naxçıvanda hər birimiz, xüsusilə də fəal, yaradıcı gənc nəsil ekoloji mədəniyyətə sahib olmaqla, təbiətə, sərvətlərimizə, ümumi evimiz olan ətraf mühitə qayğı ilə yanaşmalı, ən azı bir ağac əkməklə onun qorunmasına töhfə verməliyik!

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

---

*Naxçıvan mətbəxi*

# Milli mətbəximizin dadlı dolmaları

*Ötən həftəsonu uşaqların istəyi ilə badımcan, bibər, pomidor dolması hazırlamağı düşünürdüm. Elə bu məqsədlə də evimizin yaxınlığında yerləşən bazara üz tutdum. Mövsümü olduğundan çətinlik çəkmədən lazım olan yerli məhsullardan münasib qiymətə aldım. Bazarlığımı edib geri qayıdarkən qonşumuz Səmayə xala ilə rastlaşdım. Qonşum uşaqların arzusunu eşidəndə mənə kömək etmək istədiyini bildirdi. Birlikdə evə qayıdıb, nahardan sonra azacıq istirahət edib mətbəxə keçdik. Aldığım tərəvəzlərə baxan qonşum badımcanların ölçüsünü bəyənərək "yerlidir, böyük olsa da, toxumlu deyil", – dedi.*



Səmayə xala əvvəlcədən soyuducudan çıxardığım yumşaq əti pörtlədib qiyməlidi və narın doğradığımız soğanla birlikdə yağda qızartdı. Dedi ki, dolmaya içlik üçün ətin bu formada bişirilib hazırlanması təkcə Naxçıvan mətbəxinə aiddir. Digər bölgələrimizdə ət çəkilmiş və ya döyülmüş şəkildə qızardılıb düyü də əlavə edildikdən sonra badımcan, bibər və pomidorun içərisinə yığılır. Noxud ləpəsini qaynadıb suyunu süzməyə qoyan qonşum elə dolmaya ləpə vurulmasının da məhz bizim mətbəxə aid olduğunu söylədi. Sonra eyvandan həyətində əkdiyi reyhanları göstərərək onlardan yığmağımı istəyərək bildirdi ki, bu dolmaya yalnız az miqdarda reyhan göyərtisi vurulur. Amma Ordubad rayonunda qızılgül ləçəyi əlavə edənlər də var. Bu da xörəyi daha dadlı və ətirli edir. Aramaram badımcanları soyub baş tərəfindən bir balaca qapaq üçün kəsərək içini oyan Səmayə xala onların üzərinə və içinə istiot, duz və sarıkökdən hazırladığı qarışıqdan vuraraq süzgəcə yığdı. Diqqətlə baxdığımı görən qonşum izah etdi ki, ay qızım, belə etməsək, badımcanlar tez qaralar. Mən də pomidor və bibərləri yuyub içlərini səliqə ilə oydum.

Artıq lazım olan hər şey hazır idi. Səmayə xala içliyi badımcan, bibər və pomidora doldurub öz qapaqları ilə örtüb geniş qazana düzdü. "Pomidorları üstə qoymaq lazımdır ki, əzilməsin", – deyən qonşum pomidordan çıxan içliyin bir hissəsini qazana tökdü. Onu da bildirdi ki, bu dolma hazırlanma qaydasına görə fərqlənir. Məsələn, bizdə badımcanın qabığı soyulduğu halda, başqa bölgələrimizdə qabıqlı bişirilir. Buna görə də bu üsulla bişirilən dolmaya Azərbaycanın rayonlarında "Naxçıvan dolması" da deyirlər. Yeməyi ocağa qoyduqdan sonra elə mövzu başlamışkən mehriban qonşumla Naxçıvan mətbəxinin sevilən təamlarından olan dolmalar haqqında söhbət etdik. Söhbətimiz mənə ötən il Ordubad rayonunun Aşağı Əndəmic kəndində yaşayan Rəfiqə nənənin qonağı olmağımızı xatırlatdı. Bu dəfə heç bir əziyyət verməmək üçün xəbərsiz üz tutmuşduq onu görməyə. Buna hədsiz sevinən Rəfiqə nənə bizimlə hal-əhval tutduqdan sonra Azərbaycan qadınlarına xas olan cəldliklə mətbəxə keçib işə başlamışdı. Hər zamankından fərqli olaraq Rəfiqə nənə bu dəfə bizə soğan dolması bişirmiş və bunun qaydasını da izah etmişdi:

– Soğan dolması üçün əti və 1 ədəd iri baş soğanı taxtada döyüb, düyünü yuyaraq ətin üzərinə əlavə etmək lazımdır. Xırda doğranmış göyərti (keşniş, reyhan), bişirilmiş noxud ləpəsi, duz, istiot və sarıçiçək vuraraq içliyə qatdıqdan sonra 1 ədəd xırda-xırda doğranmış baş soğanı yağda qızardıb içə əlavə edirik.

Rəfiqə nənə hazırladığı həmin içliyə pomidor da doğrayıb tökmüşdü. Təmizlənmiş soğanı duzlu suda azca pörtlədib, həmin soğanların qat-qat bir-birinin içindən çıxararaq hazır içliyi onun içərisinə doldurmuş və qazana yığmışdı. 2 xörək qaşığı sirkəyə 1 xörək qaşığı şəkər tozu qarışdırıb sirkə-şirə hazırlamış, dolmanın üzərinə sirkə-şirə, duz, pomidor tomatı, bir qədər də su əlavə edib sobaya qoymuşdu. O deyirdi ki, əti və düyüsü bişdisə, artıq dolma hazırdır. Həqiqətən də, bu xörəyi ləzzətlə yemişdik.

Rəfiqə nənənin mətbəx təcrübəsindən bizimlə bölüşdüyü bir məsələ də hafizəmə həkk olunub ki, bu da Kəngərli rayonunda yetişən iri baş soğanın (Qarabağlar soğanı) içini çiy halda nazik bıçaqla oyub, badımcan, pomidor dolmasının qiyməsini içinə dolduraraq onlarla birlikdə bişirdikdə, xüsusilə ləzzətli olmasıdır.

Səmayə xalanın meyvə və tərəvəzlərdən hazırlanan dolmaların bişirilmə qaydası haqqında söhbəti məni keçmiş xatirələrdən ayırdı. O dedi ki, milli mətbəximizdə qıra dolması da var. Naxçıvanda "qıra" kiçik, yetişməmiş yumru qovuna deyirlər. Bu dolma ətli, əsasən, ətsiz bişirilir. Baş soğan qızardılır, düyü, noxud ləpəsi əlavə olunur, duz, istiot, sarıkök qatılır və təmiz yuyulub oyulmuş qıraların içinə doldurulur, azca su əlavə edilib bişirilir.

"Süfrəmizin əvəzedilməz təamlarından biri də yarpaq dolmasıdır", – deyən Səmayə xalanın sözünə qüvvət olaraq mən də yarpaq dolmasının məhz bizim milli mətbəx nümunəsi olmasından həvəslə söhbət açdım:

– Azərbaycanda elə bir ailə yoxdur ki, o ailədə bu yemək növü sevilməsin. Yazın başlanğıcında yenicə yarpaqlayan üzüm yarpağından bişən dolmanın dadı da bir başqa olur. Evdar qadınlar soyuq aylarda da bu dadlı-tamlı yeməyi bişirmək üçün yazda qışa tədarük görərək təzə üzüm yarpaqlarını duza qoyub saxlayırlar.

Səmayə xala dedi ki, yarpaq dolmasının daha dadlı olması üçün yağlı qoyun ətini döyür, ya da ət maşınından keçiririk, baş soğanı narın doğrayıb ətə qatır, sonra isə düyünü yuyub əlavə edirik. Bişirilmiş noxud ləpəsi, göyərti (keşniş, şüyüd, nanə, məzrə) doğranıb, duz, istiot, sarıçiçək vurulur. Ət yağsız olduqda azca kərə yağı da əlavə etmək yeməyi daha ləzzətli edər. Qazanın dibinə yapışmasın deyə, yarpaq sərilməli, dolmanı qazana yığdıqdan sonra isə üzərinə boşqab və ya qapaq qoyulmalıdır ki, açılmasın. Zəif odda bişməyə qoymazdan əvvəl üzərini örtənə qədər su tökülüb, bişənə yaxın parıltılı olması üçün üzərinə 1-2 qaşıq kərə yağı qoymaq lazımdır.

Səmayə xaladan onu da öyrəndim ki, üzüm yarpağından əlavə, bağayarpağı, əməköməci, dikcə, heyva, tut, lobya, əvəlik kimi bir çox bitkilərin yarpaqlarından da dolma bükmək üçün istifadə edilir. Bu dolmalara yağ əvəzinə ev xaması vurulduqda daha dadlı və yumşaq olur. Qovurmadan da yarpaq dolması hazırlamaq mümkündür. Heyva dolmasından da danışan qonşum dedi ki, heyvanın içi çıxarılır, qabığı soyulur, yağlı ət, baş soğan, keşniş birlikdə qiymələnir və ya ət maşınında çəkilir, ya da döyülür, duz, istiot, sarıçiçək vurulub qarışdırılır, heyvanın içinə doldurulur. Sobada 250 dərəcə istilikdə bişirilir.

Səmayə xala ilə maraqlı söhbət bizə vaxtın necə keçdiyini unutdurdu. Artıq badımcan, bibər, pomidor dolmamız hazır idi və iştahla süfrə başına yığışdıq...

*Yazının sonunda onu da qeyd etmək yerinə düşər ki, bu gün hər kəsin evində asanlıqla hazırlaya biləcəyi bir çox yeməkləri marketlərdə də görə bilirik. Zəhmətkeş qadınlarımız ailə təsərrüfatçıları kimi yaradılan imkanlardan istifadə edərək evlərində bu təamları hazırlayıb satışa çıxarmaqla həm öz ailələrinə maddi dəstək verir, həm də günün çoxunu işdə keçirən qadınlara köməklik edirlər.*

✍ **Telli MƏMMƏDOVA**

---

***İtmişdir***

Şərur rayon Zeyvə kənd sakini Hüseynov Nəsib Bilal oğlunun adına verilmiş 1233 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 527**